Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

*Mətbuatda ilk dəfə*

# Həmidə xanımın iztirablı uşaqlıq illəri

**Doğrusunu deyim ki, Həmidə xanım Cavanşir-Məmmədquluzadənin uşaqlıq illərinin belə iztirablarla dolu keçməsi haqqında əvvəllər heç bir bilgim yox idi. Düşünürdüm ki, Qarabağın xan nəslindən olan, iri torpaqlara sahib, ziyalı mülkədar təbəqəsinə mənsub, Qarabağda ad-san çıxaran Əhməd bəy Cavanşirin qızı uşaqlığını xoş güngüzəranla keçirib. Amma sən demə, yanılmışam. Bu yaxın günlərdə Həmidə xanımın uşaqlıq illəri ilə bağlı informasiya əldə edərkən çox kədərləndim.**

Bildiyimiz kimi, Həmidə xanımın atası Əhməd bəy Cavanşir Avropada təhsil almış, maarifçi, islahatçı, xeyriyyəçi, tərcüməçi, yazar, 1867-ci ildən "Vestnik Yevropı", "Kavkaz", "Niva", "Novoye obozreniye" kimi tanınmış mətbu orqanları ilə əməkdaşlıq edən, dövrünün say-seçmə ziyalılarından olan M.F. Axundzadə və H.Zərdabi ilə dostluq əlaqələri yaradan Cavanşirlər nəslinə mənsub bir şəxsiyyət olub.

Avropa təhsili görmüş Əhməd bəy uzun illərdən sonra öz vətəninə doğma Qarabağa qayıdır. "İlk dəfə 1861-ci ildə ailəsi etiraz etsə də, Əfətli kəndindən olan gənc bir dul qadın Mülkü xanımla evlənir". Lakin Əhməd bəyin nə ilk evliliyi, nə də ikinci evliliyi ona xoşbəxtlik gətirmir. Mülkü xanımla olan izdivacdan dörd övladı olur, dördü də hələ körpə ikən dünyasını dəyişir. Əhməd bəy Mülkü xanımı boşayır və bir daha evlənməyəcəyinə söz versə də, qohum-əqrəbanın təkidi ilə 1869-cu ildə yenidən ailə qurur. Bu dəfə də Əhməd bəy ailə quracağı xanımı öz istəyi ilə seçir.

Həmidə xanım xatirələrində yazır: "Atam Əhməd bəy bir dəfə Saybalı kəndindən keçərkən üzünü gizlətmədən, yaşmanmadan, cəsarətlə, dik-dik ona baxan gənc bir qız görür. Qızın bu hünəri atamın çox xoşuna gəlir və elçi göndərib həmin qızı alır".

Xatirələrdən belə bəlli olur ki, bu, Əfətli kəndindən olan ata-anasını çox tez itirən, yetim, kasıb, dayısının himayəsində böyüyən bir qız olub. Qızın kasıb təbəqəyə mənsub olması və kimsəsizliyi Əhməd bəyi fikrindən döndərmir. (Xan nəslinə mənsub bir bəyin kasıb, kimsəsiz bir qızla evlənməsi-Q.D).

Beləliklə, Əhməd bəy 1872-ci ilin əvvəllərində Xeyransa xanımla ailə qurur. O, gənc xanımına təhsil verir, gözəl vərdişlər öyrədir, onu Avropa sayağı geyindirib-keçindirir. Onun bu hərəkəti ilk günlər el-obada yaxşı qarşılanmır, söz-söhbətə səbəb olur.

Bu haqda Həmidə xanımın xatirələrindən oxuyuruq: "Atam Xankəndində yaylaq evində yaşayanda xanımını Avropa üslubunda geyindirər, hərbi hissə yerləşən bulvarda üzüaçıq, çadrasız, gəzdirərdi. Onların qol-qola gəzməsi atamı möhkəmcə dilə-dişə salmışdı. Biri deyirdi kafirdir, o biri deyirdi dindən dönüb, bu biri deyirdi məzhəbi danıb, urus olub. Elə o vaxtlardan da atamın adı xalq arasında "Urus Əhməd" qalmışdı. Ancaq orada-burada çox danışsalar da, heç kəs atamın bu hərəkətlərinə açıq etiraz edə bilmir, cəsarət edib üzünə bir kəlmə belə deyə bilmirdi. Çünki böyük insani keyfiyyətlərinə, xeyirxahlığına, cəsarətinə və mərdliyinə görə camaatın əksəriyyəti atamın xətrini çox əziz tutar, hörmət və ehtiramını saxlayardılar".

* * *

1872-ci ilin dekabrının son günləri Əhməd bəyin ailəsində bir qız uşağı dünyaya gəlir. Qız olması Əhməd bəyin böyük qardaşı Əli bəyi çox məyus edir. Sonra bu hadisəni Həmidə xanım belə xatırlayırdı: "Əhməd bəyin əziz qardaşı Əli qapımızdakı tut ağacına bir cöngə gətirib bağlamışdı. Demişdi: "Əhməd bəyin oğlu olsun, kəsib kasıb-kusuba paylayacağam". Eşidəndə ki, qız doğuldu, hirsindən gedib cöngəni ağacdan acıb başına buraxır və deyir: "Saybalı qızı bizə oğlan doğandı?".

Amma xatirələrdən bəlli olur ki, Əhməd bəy qızı olmasından o qədər də məyus olmur və deyir: "Yaxşı təlim-tərbiyə almış qız oğlandan geri qalmaz. Mənim qızım elə olmalıdır ki, biz kişilər ölüb getsək bizi şərəflə əvəz edə bilsin".

İllər keçir. Bu balaca qız böyüyür, atası Əhməd bəyin gözləntilərini doğruldur. Tariximizə xeyriyyəçi, maarifpərvər, xanım-xatın, qorxmaz, sədaqətli Həmidə xanım Cavanşir-Məmmədquluzadə kimi düşür.

Həmidə xanımın ayağı yüngül olur. İki il sonra 1874-cü ildə onun qardaşı da dünyaya gəlir. Əhməd bəy oğluna atası Məhəmməd bəyin adını verir. Həmin vaxt Əhməd bəyə elə gəlirdi ki, Qarabağ mahalında ondan xoşbəxt yox idi. Amma sən demə, bu xoşbəxt günlərin ömrünə, çox az, saylı günlər qalıbmış...

Bir gün Xeyransa xanımın dayısı Məhəmmədhəsən bəy eldə-obada qaçaq-quldur kimi ad çıxaran oğlanları Hidayət və Əlişi məhkəmədə zaminə götürmək üçün Əhməd bəydən borc pul alır. Bir necə vaxt keçəndən sonra Əhməd bəy borcunu geri almaq üçün Məhəmmədhəsən kişinin qapısına adam göndərir. Əhməd bəyin pulunu istəməsi Hidayət və Əlişin xoşuna gəlmir. Onlar Əhməd bəyin göndərdiyi adamı döyübsöyür, təhqir edirlər.

Bu hadisə Əhməd bəyə çox toxunur. O, qəti olaraq xanımına tapşırır ki, "bundan sonra qaçaq düşmüş və açıq-aşkar soyğunçuluqla məşğul olan dayısı oğlanlarının ailəsi ilə bütün əlaqələrini kəssin".

Oğlanlarının quldurluq etməsi, kəndi-kəsəyi soyub çapması, ailənin gün-güzəranının getdikcə pisləşməsinə dözə bilməyən Məhəmmədhəsən kişinin arvadı Təzəxanım vəfat edir. Bu hadisəni Həmidə xanım xatirələrində belə təsvir edirdi: "Anamı çox sevən və böyüdən dayısı arvadı Təzəxanım vəfat etdi. Anam öz anası kimi sevdiyi bu qadının ölüm xəbərini eşidəndə hönkür-hönkür ağlamış və atama yalvarmışdı ki, dayısıgilə hüzür mərasiminə getməsinə izin versin. Atam izin verməmişdi. Anam atamın bu hərəkətindən qeyzə gəlib demişdi ki; "...özüm pay-piyada yola düzəlib gedəcəyəm dayımgilə". Atam da ona cavab vermişdi ki "...məndən icazəsiz gedərsənsə, bir daha bu evin üzünü görə bilməzsən". Bu sözlər anamın qəzəbini bir az da artırmış, o, uşağı yürükdə yatmış qoyub tək-tənha dayısıgilə, bizim kəndin üç-dörd verstliyində yerləşən Əfətli kəndinə gedir. Atam onun ardınca adam göndərmir, uşağı isə əmizdirmək üçün dayəyə verir. Deyirlər ki, bir müddət sonra anam çox peşman olur. Anamın dayısı onu evə gətirmək istəyir, ancaq atam qoymur. Bu vəziyyət anamın dikbaş qohum-əqrəbasının heysiyyətinə toxunur. Bundan sonra onlar atamla düşmənçiliyə başlayırlar. Dayım Camal bacısının kədərinə dözməyib gizlicə bizim kəndə gəlir və atamdan izinsiz uşağı süd anasından alıb anama aparır. Bundan sonra ata-anamın münasibətləri tamamilə korlanır. O məşum hadisədən sonra mən bir daha yazıq anamın üzünü görmədim. Biz qardaşımla dəhşətli həsrət çəkirdik. Elə hey onun geri dönəcəyini gözləyirdik. Amma anam dönmədi. Qardaşım və mən bütün həyatımız boyu bədbəxt olduq".



**"Anamı çox sevən və böyüdən dayısı arvadı Təzəxanım vəfat etdi. Anam öz anası kimi sevdiyi bu qadının ölüm xəbərini eşidəndə hönkür-hönkür ağlamış və atama yalvarmışdı ki, dayısıgilə hüzür mərasiminə getməsinə izin versin. Atam izin verməmişdi. Anam atamın bu hərəkətindən qeyzə gəlib demişdi ki; "...özüm pay-piyada yola düzəlib gedəcəyəm dayımgilə". Atam da ona cavab vermişdi ki "...məndən icazəsiz gedərsənsə, bir daha bu evin üzünü görə bilməzsən". Bu sözlər anamın qəzəbini bir az da artırmış, o, uşağı yürükdə yatmış qoyub tək-tənha dayısıgilə, bizim kəndin üç-dörd verstliyində yerləşən Əfətli kəndinə gedir. Atam onun ardınca adam göndərmir, uşağı isə əmizdirmək üçün dayəyə verir".**

Təxminən 1880-ci illərdə baş verən bu hadisədən sonra ailədə daha böyük bədbəxtliklər baş verir. Əhməd bəy dəfələrlə qəzaya düçar olur, təsərrüfatında işləri alınmır, əkin sahələrini dolu, quraqlıq, çəyirtkə məhv edir. Arvadının yanında qalan oğlu Mehrəli xəstələnərək dünyasını dəyişir. Övladlarının həsrətindən Xeyransa xanım yatağa düşür.

Əhməd bəy anasız qalan övladlarına təhsil və tərbiyə vermək üçün bir rus və fransız mürəbbiyə tutur. Fransız xanımı Əhməd bəyin uca boyuna, şux qamətinə biganə qala bilmir və bir gecə xəlvətcə Əhməd bəyin yataq otağına keçməyə cəhd edir. Bunu hiss edən Əhməd bəy onu gecəliklə evindən uzaqlaşdırır. İllər sonra bu haqda Həmidə xanım yazırdı: "Bu fransız qadın dərslərimizlə məşğul olur, bizimlə gəzir, söhbət edir və gecələr də bizimlə bir otaqda yatırdı. Bir səhər yuxudan oyandıq və bizim mamzeli heç yerdə tapmadıq. Qulluqçular dedilər ki, atam dan yeri söküləndə onu geriyə Xankəndinə yola saldı. Sonradan bizə məlum oldu ki, fransız qadını atama yaxınlaşmaq istəyib, o, isə bildirib ki, onu uşaqların tərbiyəsi üçün gətirib, öz əyləncəsi üçün deyil. Yerli camaat çox tündxasiyyət və sərt atamı bu mərd cəhətlərinə görə çox sevir və hörmət edirdilər. Atam əli altında, ondan asılı olan qadına göz yetirməyi, ələ keçirməyi alçaqlıq hesab edirdi".

Həmidə xanımdan fərqli olaraq qardaşı Məhəmməd bəy 12-13 yaşlarında bir-iki dəfə atasından gizlin anası ilə görüşür. Amma bu görüş onu daha da sarsıdır. "Qardaşım çox qaradinməz və içinə qapalı idi. Üzü nadir hallarda gülərdi. Bu hadisələr onun ruhunu sarsıtmışdı" - söyləyən Həmidə xanım bütün ömrü boyu gənc qardaşının faciəli ölümü ilə barışa bilmirdi.

Moskvada Petrovski Akademiyanı bitirən Məhəmməd bəy 1900-cü ildə, Yevlax stansiyasında özünü qatarın altına ataraq intihar edir. Bu ağır itkiyə dözə bilməyən Əhməd bəy 1903-cü ilin yanvarın 9-da vəfat edir.

Bütün doğmalarını itirən Həmidə xanım bəlkə də Mirzə Cəlili ona görə daha çox sevmiş və hörmət etmişdir ki, Mirzə ona yalnız ömür-gün yoldaşı olmamışdır. O, Həmidə xanımın ən yaxın sirdaşı, məsləkdaşı, şad günündə, pis anında yanında olan, çəkdiyi iztirabları ovundurmağa çalışan sədaqətli dostu idi.



**Qərənfil Dünyamin qızı,
Filologiya üzrə fəlsəfə doktoru**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*